# AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI

## Q Ə R A R № 09

**Bakı şəhəri,** **2006-cı il 12 aprel**

**Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə tariflərin təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə»nin təsdiq edilməsi barədə» 2005-ci il 26 dekabr tarixli 341 nömrəli Fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 30 dekabr tarixli 247 nömrəli qərarı ilə təsdiq edilmiş «Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təşkil edilməsi Qaydaları»na və Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının 2006-cı il 12 aprel tarixli iclasının **QƏRARINA ƏSASƏN:**

1. "Telekommunikasiya haqqında" Azərbaycan Respublikası Qanununun 7.3-cü maddəsinə əsasən Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən hazırlanmış təkliflər nəzərə alınaraq, Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə aşağıda göstərilən tariflər təsdiq edilsin.

| № | Nömrə resurslarının adı | Tariflər (ƏDV ilə manatla) | |
|---|---|---|---|
| | | Birdəfəlik | İllik |
| 1. | Sabit telefon şəbəkəsi üçün nömrə resursunun ayrılması (1 nömrə üçün) | | |
| | Bakı şəhərində | 0,8 | 0,1 |
| | digər bölgələrdə | 0,2 | 0,02 |
| 2. | Sabit telefon şəbəkəsi üçün 2 və yaxud 3 rəqəmli coğrafi zona kodunun ayrılması | 20 000 | 1000 |
| 3. | Mobil telekommunikasiya şəbəkəsi üçün 2 və yaxud 3 rəqəmli coğrafi kodun ayrılması | 240 000 | 20 000 |
| 4. | Mobil telekommunikasiya şəbəkəsi üçün qeri-coğrafi nömrə resursunun ayrılması | 10 000 | 0,004 |

| | | | |
|---|---|---|---|
| | (2 rəqəmli koddan sonra gələn 1 milyonluq nömrə resursunun hər bir nömrəsi üçün) | | |
| 5. | 3 və 4 rəqəmli qeyri-coğrafi kodun şəhər daxilində ayrılması: | | |
| | ÜİTŞ-dən istifadə etməklə (DİAL-UP) İnternet şəbəkəsinə giriş üçün; | 1 600 | 245 |
| | digər xidmətlər üçün | 2 800 | 840 |
| 6. | Beynəlxalq nöqtə (point) kodunun ayrılması | 2 940 | 245 |
| 7. | Milli nöqtə (point) kodunun ayrılması | 980 | 300 |
| 8. | Mobil şəbəkə kodunun ayrılması (MNC) | 1 960 | 240 |
| 9. | Data şəbəkə identifikasiya kodunun ayrılması (DNIC) | 1560 | 200 |

2. Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə tariflərin ilk dəfə tətbiq olunduğu nəzərə alınaraq Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinə tapşırılsın ki, 2006-cı ilin sonuna qədər tariflərin tətbiqi üzrə alınmış nəticələri təhlil etsin və təkliflərini Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasına təqdim etsin.

3. Azərbaycan Respublikasının ümumistifadəli telekommunikasiya şəbəkəsində nömrə resurslarının ayrılması və istifadəsi üzrə tariflər 2006-cı il 01 may tarixindən tətbiq edilsin.

**Azərbaycan Respublikasının**
**Tarif (qiymət) Şurasının sədri** **H.Babayev**

AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASININ KATİBLİYİ